

# İspaniyanın vergi sistemi

İspaniyanın Vergi sistemi - ölkənin vergi sisteminin birləşməsinə səbəb 1845-ci ildə baş tutan islahat hesab olunur. Hazırda istifadə olunan sistem 1977-ci il islahatı əsasında yaradılmış və sonradan Avropa Birliyinin tələblərinə uyğun dəyişikliklərə məruz qalmışdır. 1992-ci ildə ispan vergi orqanlarının yenidən təşkili nəticəsində, bir sıra vergi bölmələrini bir araya gətirərək bir vergi orqanını müəyyən edir - Dövlət vergi Agentliyi. Agentlik hüquqi şəxs hüququ statusunu əldə edir və toplanmış vergilərin 18%-ini mənimsəmə hüququnu qazanır.



İspaniyanın cari vergi sistemi ölkənin müasir iqtisadi mexanizminin tərkib hissəsidir. Dövlət büdcəsinin gəlirlərinin artmasında və əhalinin sosial müdafiəsi sahəsində əsas alət hesab olunur.

Ölkə 17 muxtar əraziyə bölünür. Muxtar ərazilərin statusu müxtəlifdir. Onlardan ikisi - Navarra və Basklar Ölkəsi - vergi sahəsində daha çox muxtariyyət əldə etmişdir. Belə ki, onlar regional və yerli vergilərə müxtəlif növ "daxil etmə" və federal vergi yığmaq hüquqlarına malikdirlər. Ikinci qrup regionların, o cümlədən Katalonyanın vergi dərəcələrini tənzimləmək səlahiyyətiləri var. Üçüncü qrup regionların isə özününün vergi siyasətinin müdaxil etmə hüququ yoxdur. Onlar ciddi şəkildə



vergi sahəsində müəyyən edilmiş federal qanuna riayət etməlidirlər.

Vergilərin toplanmasında yerli hakimiyyət orqanları məsuliyyət daşıyır. Toplanmış vəsaitlər maliyyə ehtiyaclarının səviyyəsindən asılı olaraq, muxtar qurumlara və dövlət büdcəsinə göndərilir.

Hal-hazırda, İspaniyanın vergi sistemi üç qrupa bölünür:

Federal vergilər:

1. Gəlir vergisi.

Gəlir vergisi əmək haqqı, iş və peşə fəaliyyətindən gəlir, dividendlər, daşınmaz əmlakdan daxil olmalar, vərəsəlik, icarəyə verilmiş əmlakla yanaşı, həm də təqaüddən, işsizlik müavinəti və digər sosial müavinətlərdən tutulur. Xəstəliyə görə müavinətlər, dövlət təqaüdü, lotereyalardan mükafatlar gəlir vergisinə cəlb olunmur. Gəlir vergisi tək və ya ailə şəklində ödənilir. Minimal vergi tək olaraq il ərzində 2400 evro, ailə şəklində isə 4800 evro təşkil edir. İspaniya qanunvericiliyində vergi bəyannamələrinin verilməsinin son



müddəti iyunun 20-sinə təyin olunmuşdur. Gecikdirdikdə cərimələr tətbiq olunur.

2. Əlavə dəyər vergisi. (IVA).

Vergi qanunvericiliyi ƏDV-ni istehlaka dolayı yolla tətbiq edilmiş vergi kimi təsnifləşdirir. ƏDV 2010-cu ildən etibarən bir neçə



dərəcələrə bölünür. Hal-hazırda tətbiq olunan dərəcələrin sayı aşağıdakılardır:

- 4% (birinci dərəcəli ərzaq malları hesab olunan tərəvəz, çörək, süd, meyvə, kitablar və qəzetlərə tətbiq olunur);
- 8% (əsas ərzaq malları, sərnişin nəqliyyatı, mehmanxana xidmətlərinin əksəriyyəti və yeni evlərin tikintisi üçün tətbiq olunur);
- 18% (satış üzrə bütün əməliyyatlar üçün);
- "0" dərəcə ilə (səhiyyə xidmətləri, xəstəxanalar, maliyyə, bank, sığorta əməliyyatları və təhsil üçün tətbiq olunur).

ƏDV İspaniyada satış və xidmətlər həyata keçirilərkən ödənilir. 2008-ci il yanvar ayının 1-dən İspaniyada ƏDV ödəyiciləri qrupu yaradılmışdır. Məqsədi holdinq tipli müəssisələrin ümumi göstəriciləri əsasında vergi ödənilməsi idi. Qeyd etmək lazımdır ki, bu müəssisələrin hər biri ayrı-ayrılıqda hüquqi şəxsdir, yəni qeydiyyat nömrəsi vardır və ayrıca vergi bəyannamələri təqdim edir.

3. Müəssisələrin mənfəət vergisi.

Bu vergi müəssisə və digər hüquqi şəxslərin mənfəətindən tutulur. İspaniyanın bütün ərazilərində tətbiq edilir. Ümumi İspaniya üzrə mənfəət vergisi 30%, Baskların Ölkəsinə isə 28% -dir. Bu verginin obyektləri forma və adından asılı olmayaraq, bütün növ (vətəndaş cəmiyyəti istisna olmaqla) hüquqi şəxs statusuna malik təşkilatlardır. Misal olaraq aşağıda sadalanan obyektəri göstərmək olar:

- Kommersiya təşkilatları (səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər, əmək qrupları və s.);
- Müxtəlif dərəcəli dövlət təşkilatları;
- Kooperativlər və kənd təsərrüfatı müəssisələri;
- Fərdi sahibkarlar;
- Avropa İqtisadi Birliyi;
- Asosiyasiyalar, dövlət və özəl fondlar.

Vergi orqanına mənfəət vergisi haqqında Bəyannamə ildə bir dəfə iyulun 1-də təqdim edilməlidir.

4. Aksiz vergisi.

Beynəlxalq təcrübəyə uyğun aksiz vergisinə cəlb edilən əşyaların siyahısına spirtli içkilər, tütün məhsulları, yanacaq, avtomobil və bir sıra digər mallar daxildir. Yəni İspaniyada aksiz vergisi arzuolunmaz və ya zərərli mallara tətbiq olunur.

Regional vergilər:

1. İqtisadi əmiyyatlar üzrə vergi.

Bu vergi hüquqi şəxsin təsis sənədlərinin hazırlanması; kapitalın artıb-azalması; şirkətlərin birləşmə, bölünmə və ləğv olunması; şirkətin baş ofisinin ünvanın dəyişilməsi kimi müxtəlif iqtisadi əməliyyatlara tətbiq edilir.

2. Mülkiyyət hüququnun ötürülməsinə dair vergi.

Bu vergi fiziki şəxslər arasında nəqliyyat vasitəsinin, torpaq və ya binaların satışı zamanı tutulur. Bir sözlə ƏDV ödəyicisi olmayan bütün əməliyyatlar vergi obyekti hesab edilir. Onun dəyəri notariat sənədlərində göstərilən məbləğin 7%-ni, əmlakın dəyərinin isə 6%-ni

təşkil edir

3. Hüquqi sənədlərə vergi.

Bu vergi notarial qaydada təsdiq olunmuş sənədlərə tətbiq edilir. Hüquqi sənədlərə tutulan vergi iki dərəcəyə bölünür:

- Sabit dərəcə (möhürlü vərəqələrdə təsdiq edilmiş sənədlərə tətbiq edilir);
- Dəyişən dərəcə ( Daşınmaz əmlak, Kommersiya və ya Sənaye Reisterində təsdiq edilmiş əsasını pul vəsaiti və ya qiymətli aşyalar təşkil edən aktlara tətbiq edilir).

Qeyd olunmuş məbləğin 0,5 %-ni təşkil edir və bank vasitəsi ilə ödəniş edilir.

Yerli vergilər:

4. Fiziki şəxslərdən daşınmaz əmlaka vergi.

Burada daşınmaz əmlak dedikdə, bələdiyyə daxilində torpaq və binalar nəzərdə tutulur. Bu vergi dərəcəsi bələdiyyələr tərəfindən tənzimlənir və adətən 3%-dir. Əmlakın qiymətləndirməsi İnventarlaşdırma Nəzarəti tərəfindən həyata keçirilir. Bu vergi ildə bir dəfə ödənilir. Bu bələdiyyə gəlirlərinin təxminən 15%-ni təşkil edir.

Dəniz zonasında qeydiyyatda olan şirkətlərə məxsus daşınmaz əmlak üzrə vergi daha yüksək dərəcə ilə (5%) hesablanır. Dəniz ərazilərinin siyahısı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının tövsiyələrinə uyğun olaraq Hökumət tərəfindən təsdiq edilir. Xüsusilə bu siyahıya İngiltərənin Vircin adaları, Panama, Seyşel adaları, Beliz, Nevis, Samoa, Bahamas, Marşal adaları və Dominika daxildir.





5. Fiziki şəxslərdən avtomobil nəqliyyatına vergi.

Bu verginin toplanması və paylanması ilə bütövlüklə yerli idarəetmə məşğul olur. Bu, vergi kateqoriyasından asılı olmayaraq ictimai yollarda sürücülük üçün istifadə olunan (müvafiq dövlət qeydiyyatından keçmiş) nəqliyyat vasitələrinə tətbiq edilir. Vergi ödəyicisi av-



tomobilin sahibidir. Vergi dərəcəsinin orta məzənnəsi hər il 90-150e vro təşkil edir. Vergi tətbiq edilməyən nəqliyyat vasitələrinə sadalananlar daxildir:

- Avtobuslar;
- Yük maşınları;
- Traktorlar;
- Velosiped və motosikllər;
- Qoşqular və yarımqoşqular.

Əlavə olaraq digər yerli vergilər də mövcuddur:

1. Torpağın dəyərinin artmasına vergi. Torpaq sahibini dəyişildikdə onun dəyərinin istifadə müddəti ilə satış arasında İnventarlaşdırma Nəzarəti tərəfindən artması zamanı tərbiq edilir;
2. Dövlət əhəmiyyətli binaların tikintisi vergisi;
3. Lazımsız əşyaların xaric olunmasına vergi.
6. İqtisadi fəaliyyətə vergi.

Bu vergi həm fiziki həm də hüquqi şəxslərin iqtisadi fəaliyyətinə tətbiq edilir. Digər vergilərdən fərqli olaraq ödəniləcək məbləğ vəsaitlərin balansından asılı deyil. Iqtisadi fəaliyyət haqqında vergi professional, iqtisadi və yaradıcılıq fəaliyyətinin nəticəsinə tətbiq edilir. Bu fəaliyyət sahələrinə kənd təsərrüfatı fəaliyyəti, heyvandarlıq, balıqçılıq və meşə təsərrüfatı istisna hal təşkil edir.

Bu sahələr vergidən azad edilir:

- Muxtar bölgələr səviyyəsində yerli hökumətlər;
- Fəaliyyətinin ilk iki il müddətinə sahibkarlar;
- Xalis dövriyyəsi bir milyon evrodan artıq olmayan sahibkarlar;
- Elmi araşdırma ilə məşğul olan, dövlət büdcəsi tərəfindən maliyyələşdirilən ictimai təhsil;
- "Qırmızı xaç" cəmiyyəti;
- İspaniya portu;



- Əlillər üçün birliklər və təşkilatlar.

7. Tikinti, yenidənqurma və işin təşkili üzrə vergi.

Bu vergi bələdiyyələr səviyyəsində tutulur. Bu vergi ödəyiciləri bina və qurğulara malik olan, yenidənqurma və təmir işləri aparan, habelə sahibi olmayan, lakin tikinti və yenidənqurma xərclərini ödəyən fiziki və hüquqi şəxslərdir. Vergini işə başladıqdan otuz iş gün ərzində ödəmək lazımdır. Verginin məbləği işin faktiki dəyərinə əsasən hesablanır. Vergi dərəcəsi dəyərin 4%-ni təşkil edir.

8. Şəhər torpaqlarının dəyərinin artımına vergi.

Bu vergi əmlakın dəyərinin artımı zamanı tətbiq edilir. Və fiziki şəxslərdən tutulur.
Vergi aşağıda sadalanan şərtlər əsasında tutulur:

- daşınmaz əmlakın satışı zamanı;
- daşınmaz əmlakın alınması zamanı;
- mənzil və ya torpaq mülkiyyətinə sahiblik hüququ verildikdə;

Vergi ödəyiciləri hesab olunur:

- əmlak mülkiyyətinə sahiblik hüququ olan şəxslər;
- təqaüdçülər və kompensasiya olmadan sahiblik hüququ qazanan şəxslər;
- varislər.

Kanar adaları üçün xüsusi vergi rejimi.
Kanar adaları üçün İspan Konstitusiyası və vergi qanunvericiliyi xüsusi iqtisadi və vergi rejimi təyin edir. Bu sahə Kanar adalarının iqtisadi fəaliyyətini stimullaşdırmaq məqsədi ilə yaradılmış “azad iqtisadi zona” hesab olunur. “Azad iqtisadi zona” regionda qeydə alınmış şirkətlərə coğrafi səbəbdən Avropa bazarlarına uzaq olması nəticəsində yaranan çətinlikləri kompensasiya etmək üçün imkan verir. Şirkətlərin gəlirinə aşağı 4 % vergi dərəcəsi tətbiq edilir. Vergi güzəştləri işçilərin sayı, biznes və gəlirlilik növü əsasında təqdim edilir. 2006-cı ildə Avropa Komissiyası İspaniyaya xüsusi vergi rejiminin 2019-cu ilə qədər davam etməsinə icazə verdi. 2019-cu ildə “azad iqtisadi zona”nın mövcudluğuna yenidən baxılacaq.
İspaniyada qeyri-rezidentlərdən vergitutmalar .
İspaniya ilə ölkə vətəndaşları arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair Konvensiyası olan və daimi yaşayış haqqında şəhadətnamə və ya bəyannamə verən qeyri-rezidentlər banklar tərəfindən yuxarıda göstərilən vergitutmalardan azaddırlar. Gəlir vergisini isə sadələşdirilmiş forma əsasında ödəyirlər. İspaniya Krallığı Hökuməti ilə digər ölkələr arasında bu Konvensiya 1998-ci ildə bağlanıb.
İspaniyanın bütün qeyri-rezidentləri bu vergiləri ödəyir:

- Əlavə dəyər vergisi;
- Mülkiyyət hüququnun ötürülməsinə dair vergi;
- Hüquqi sənədlərə vergi.
- Fiziki şəxslərdən daşınmaz əmlaka vergi.
- Fiziki şəxslərdən avtomobil nəqliyyatına vergi.

İspaniya ilə qeyri-rezidentlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair Konvensiyası olmadıqda və ya qeyri-rezident olduqları haqqında ərizə vermədikdə, vergiləri

rezidentlər kimi ödəyirlər.
Ispaniya ərazisindəki bankların bir sıra səlahiyyətləri vardir:

- Qeyri-rezidentlərin cari, əmanət və depozit hesablarından alınmış faizlərindən;
- Qeyri-rezidentlərin sığorta əməliyyatlarının, investisiya fondları və səhmlərinin gəlirindən 18% tutulur.

İspaniya ilə ikiqat vergitutmanın aradan qaldırılmasına dair saziş imzalayan ölkələrin siyahısı: Avstriya, Belçika, Boliviya, Braziliya, Bolqarıstan, Macarıstan, Böyük Britaniya, Almaniya, Hollandiya, Danimarka, İrlandiya, İtaliya, Hindistan, Kanada, Çin, Koreya, Lüksemburq, Meksika, Morokko, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Argentina, Avstraliya, Rusiya və keçmiş SSRİ-nin digər ölkələri
Vergi öhdəliklərinin yerinə yetirilməsinə nəzarət.
İspaniyada vergilərin toplanması yaxşı müəyyən edilir, vergi müfəttişliyinin kompyüter texnikası və son texnologiya ilə hazırlanmış proqramlarla təmin olunublar və ödənişlərin aparılmasına tam şəkildə nəzarət edə bilirlər. Bundan əlavə ödənişlər haqqında məlumat vergi orqanlarına müxtəlif mənbələrdən də daxil olur. Misal üçün, İspaniya Əmlak Qeydiyyatından, bu səbəbdən vergidən yayınmalar çox asan aşkar olunur.
Vergilərin toplanması üzrə dövlət vergi orqanlarının təşkilatina daxil olan təftiş xidməti tərəfindən ciddi nəzarət həyata keçirilir. Vergi ödəmələrinin düzgünlüyünü iki əsas üsulla yoxlanılır: ümumi nəzarət (məlumatların kompyüterlə işlənib hazırlanması əsasında) və çarpazlaşdırma üsulu ( (müxtəlif inspeksiyaların məlumatlarını müqayisə etmək yolu ilə).
İspaniyada vergi bəyanatlari ən azı dörd il saxlanılır, bu müddət ərzində vergi müfəttişi onu yoxlamaq üçün vətəndaşlardan tələb edə bilər. Bütün sahibkarlar, ilk növbədə kiçik emalatxana, mağaza və kafe sahibləri kassa aparatlarından istifadə etməklə, hər hansı xidmət və ya



satış həyata keçirilərkən, müştəriyə çek təqdim etməklə maliyyə fəaliyyətinin ciddi uçotunu aparmağa borcludurlar.
Ümumiyyətlə, belə naticəyə gəlmək olar ki, İspan vergi sisteminin daha "gənc" olmasına baxmayaraq, vergi ödəyicilərinin bir informasiya mərkəzində qeydiyyatı və uçotu, fiziki və hüquqi şəxslərin edintifikasiya nömrələrinə (VÖEN-lərə) malikn olması kimi faydalı yenilikləri vardır. İspaniya vergi sisteminin bəzi aspektlərini digər ölkələrdə öz vergi qanunvericiliyinə uğurlu naticə əldə etmək məqsədi ilə daxil edə bilər. Məsələn, İspan hökuməti məşğulluq problemini azaltmaq məqsədi ilə yeni iş yerlərinin açan təşkilatlar üçün xüsusi stimul yaratmaq qərarına gəlib, misal üçün, əlil və 45 yaşdan yuxarı şəxslər işlə təmin olunduqda birbaşa subsidiyalar alırlar.

***Aidə Bağırova***